**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
---------------------------------------------------------------
**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
==================================================

*Əlyazması hüququnda*

**BƏŞIROV FUAD HIDAYƏT OĞLU**

# İQTİSADİYYATIN REAL SEKTORUNUN DAVAMLI İNKİŞAFINDA SAHİBKARLIĞIN STRATEJİ ROLUNUN ARTIRILMASI PROBLEMLƏRİ *(AZƏRBAYCAN RESPUBLIKASININ TIKINTI MATERIALLARI SƏNAYESI SEKTORUNUN TIMSALINDA)*

**5312.01- "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə - 2016**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilib.

**Elmi rəhbər:** Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Səmədzadə Ziyad Əliabbas oğlu**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru
**Natiq Əli oğlu Cavadov**

iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Tofiq qızı Hacıyeva**

**Aparıcı təşkilat:** **Azərbaycan Memarlıq və İnşaat Universiteti**

Müdafiə 17 sentyabr 2016-cı il saat $10^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya Şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 2000, Gəncə şəhəri, A. İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 16 avqust 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **A.A. Həsənov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** İqtisadiyyatın davamlı inkişafı sahibkarlıq fəaliyyətinin təşkilati-iqtisadi təminatı problemlərini önə çıxarır. Dünyada baş verən mütərəqqi dəyişikliklər və insanların daim yüksələn sosial tələbləri fonunda aparılan çağdaş makroiqtisadi siyasət sahibkarlıq fəaliyyətinə yönələn yanaşmalara, ilk növbədə, iqtisadiyyatın real sektorunun inkişafında onun strateji rolunun artırılması problemlərinə yenidən baxılmasını şərtləndirir. Bu gerçəklik özünün əksini daha çox təkmilləşən bazar münasibətlərinə uyğun sahibkarlıq potensialından səmərəli istifadədə, yeni mütərəqqi metod və motivasiya mexanizmlərinin tətbiqinə artan tələblərdə tapır. Bununla yanaşı, sahibkarlıq fəaliyyətinin genişliklə reallaşmasına qloballaşma prosesləri də ciddi təsir göstərir. İqtisadiyyatların qloballaşması təsərrüfat həyatının beynəlmiləlləşməsi prosesində yeni keyifiyyət mərhələsi olaraq kapitalın azad hərəkətini məhdudlaşdıran maneələri aradan qaldırır, dünya bazarının müstəqilliyini və seqmentləşməsini genişləndirir, bununla da sahihbkarlığın inkişafına öz töhfəsini verir. Qloballaşma şəraitində yalnız sahibkar kapitalının qatının genişlənməsi və mərkəzləşməsi formaları dəyişikliklərə məruz qalmır, burada rəqabət metodları, sosial münasibətlər və fəaliyyət motivləri də yeni keyfiyyətlərdə təzahür edir. Bu proses bir çox hallarda qanunauyğun və obyektiv xarakter daşıyaraq, sahibkarlığın inkişaf istiqamətlərini müəyyənləşdirir.

Sahibkarlıq heç də hər kəsin uğur qazana bilmədiyi, təkcə sanballı iqtisadi bilik, qətiyyət, işgüzarlıq, zirəklik, risk deyil, həm də yaradıcılıq qabiliyyəti və qeyri-adi düşüncə tərzi tələb edən fəaliyyət sahəsidir. Bu sahədəki zəngin potensial ona maddi, maliyyə və insan resursları ilə birlikdə istehsal amili kimi baxmağa imkan verir. Elə bu baxımdan da sahibkarlığın sosial-fəlsəfi qavranışı, əsaslı dərəcədə, iqtisadi, ictimai, mədəni-əxlaqi münasibətlərin daşıyıcısı kimi insan fəaliyyəti ilə bağlılıqda ehtiva olunur. Məhz buna görə də sahibkarlıq fəaliyyətinin tədqiqində onu reallaşdıran insanın - sahibkarın xarakterik xüsusiyyətlərinin, bacarıq və istedadının diqqətə alınması vacib şərtlərdəndir.

Real sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi strategiyası Azərbaycan Respublikası üçün də mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edir. Bu amil əsas götürülərək, ölkədə məqsədyönlü, düşünülmüş siyasət həyata keçirilir, milli mənafelərə uyğun davamlı ictimai-siyasi, hüqüqi-demokratik, sosial-iqtisadi və institusional islahatlar aparılır. Milli dövlət quruculuğunu əsaslı olaraq formalaşdıran bu islahatlar

strategiyasının təşəbbüsçüsü, hərəkətvericisi və təminatçısı funksiyasını yerinə yetirmək ümummilli lider Heydər Əliyevin öhdəsinə düşmüşdür. İqtisadi islahatların dövrün çağırışlarına uyğun olaraq dərinləşdirilməsi və genişləndirilməsi prosesi hal-hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti ilə praqmatizmə əsaslanan yeni məzmun və çalarlarda uğurla davam və inkişaf etdirilir. Həmin siyasətin nəticəsi kimi ölkədə çoxşaxəli sahibkarlıq fəaliyyəti sahələri formalaşmışdır. Sahibkarlığa güclü dövlət dəstəyinin verilməsi, müvafiq dövlət proqramlarının, strategiya və konsepsiyaların hazırlanması və həyata keçirilməsi, biznes və rəqabət mühitinin genişləndirilməsi, sənaye zonalarının, texnologiya parklarının yaradılması, normativ-hüquqi və institusional təminatların mövcudluğu bu istiqamətdə inkişaf meyillərinə yeni stimullar gətirir. Bütün bu irəliləyişlərə baxmayaraq, iqtisadi inkişafın davamlılığının təmin olunması real sektorda rəqabətqabiliyyətli sahibkarlığın genişlənməsinə daha optimal və kompleks yanaşmanı tələb edir.

Qənaətimizcə, ölkədə qazanılmış sosial-iqtisadi effektlərin davamlılığını təmin etmək və yüksəltmək üçün iqtisadiyyatın real sektorunun inkişafında sahibkarlığın rolunun artırılmasına daha çox diqqət verilməli və bu istiqmətdə müvafiq strategiyalar hazırlanıb həyata keçirilməlidir. Belə strategiyaların daha uğurlu və effektiv vektor üzərində qurulması üçün həmin sahədə toplanmış elmi-təcrübi nailiyyətlər bir daha təhlil olunmalı, sahibkarlıq potensialından səmərəli istifadə üzrə mükəmməl iqtisadi mexanizmlər işlənməli, davamlı inkişaf modelləri hazırlanmalı, institusional islahatlar dərinləşdirilməli, investisiya axınları stimullaşdırılmalı, real sektorun inkişafı strateji planlaşdırma zəminində aparılmalıdır. Bunun üçün isə ölkədə dövlət iradəsi, əhəmiyyətli iqtisadi resurslar, sosial kapitallı yetərli sahibkar potensialı mövcuddur.

Real sektorun davamlı inkişafı və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi ilə bağlı problemlərin nəzəri və təcrübi cəhətdən öyrənilməsinə iqtisadi tədqiqatlarda mühüm yer verilir. Bu məsələ görkəmli əcnəbi alimlərlə yanaşı, Azərbaycan alimlərinin də tədqiqatlarında öz əksini tapır. Hazırda problemin kəskin praktiki aktuallıq kəsb etməsinə baxmayaraq, onun tədqiqat sferası milli iqtisad elmində o qədər də geniş deyildir. Bu onunla əlaqələndirilir ki, Azərbaycanda bazar iqtisadiyyatına keçid öncəsi sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətlər mövcud olmamışdır və bu sahədə tədqiqatlar ölkəmizdə dövlət müstəqilliyinin bərpasından sonra geniş vüsət almışdır. Eyni zamanda, o da nəzərə alınmalıdır ki, müvafiq istiqamətdə aparılan tədqiqatlarda sahibkarlığın Azərbaycan iqtisadiyyatının real sektorunun inkişafında strateji əhəmiyyəti, bu iqtisadi fəaliyyət növünün

dövlət tənzimlənməsi mexanizmləri, innovasiyaları genişləndirən təyinedici xarakteri, insan resurslarından səmərəli istifadə, sahibkarlığın korporativ sosial məsuliyyət faktorlarının rolunun artırılması, rəqabətqabiliyyətli ixracın stimullaşdırılması istiqamətindəki rolu ilə bağlı məsələlər tədqiqat predmetinə çevrilməmişdir. Həmçinin davamlı iqtisadi artımın təmin edilməsində real sektorun inkişafına sahibkarlıq fəaliyyətinin təsirinin metodoloji əsasları da kifayət qədər öyrənilməmişdir. Ölkədə iqtisadi artımı davamlı təmin etmək üçün real sektorda sahələrin kapitallaşmasını dərinləşdirmək, elmi-texniki potensialı yüksəltmək, müəssisələrin fəaliyyətini gücləndirmək, ixrac məhsulunu yeni səviyyəyə qaldırmaq, bir sıra istehlak mallarının idxalının azaldılması üzrə tədbirlər görmək lazımdır. Bu baxımdan, milli iqtisadiyyatın real sektorunun davamlı inkişafında sahibkarlığın strateji rolunun artırılması problemlərinin tədqiqi həm nəzəri, həm də praktik əhəmiyyət daşıyır.

**Problemin öyrənilmə səviyyəsi.** Dissertasiya işində real sektorun davamlı inkişafında sahibkarlıqla bağlı problemlərin öyrənilməsi kompleks nəzəri-metodoloji yanaşma əsasında aparılmışdır. Bu baxımdan, tədqiqatın nəzəri və informativ bazasını müxtəlif iqtisadi məktəb və istiqamətlərin görkəmli nümayəndələrinin - R.Kantilyon, A.Smit, J.Sey, K.Marks, D.Rikardo, A.Marşall, Y.Şumpeter, M.Veбер, C.Klark, F.Hayek, J.Keyns, E.Dürkheym, Q.Myurdal, M.Fridmen, İ.Tyunen, K.Vesper, G.Pinşot, P.Hizriç, M.Pitere və başqalarının əsərləri təşkil etmişdir.

Sahibkarlığın ictimai istehsalda yeri və rolu, dövlət tənzimlənməsi, real sektorun inkişafı ilə bağlı məsələlər müasur dünya iqtisadçı-alimlərinin - P.Druker, E.Nayt, P.Samuelson, V.Nordxaus, A.Moris, S.Bryu, K.Makkonnel, S.Fişer, P.Dornbuş, P.Şmalenzi, L.Abalkin, M.Porter, M.Erkal, A.Asaul, T.Bazarov, L.Koçurova, Y.Qaydar, A.Lunyeva, M.Pereverzev, A.Seleznyov, R.Savkina, D.Lvov və başqalarının əsərlərində fundamental tədqiq edilmişdir.

İqtisadiyyatın real sektoru, onun dövlət tənzimlənməsi, sahibkarlığın inkişafı və onunla bağlı digər strateji əhəmiyyət daşıyan məsələlər azərbaycanlı iqtisadçı alimlərin - akademik Z.Səmədzadə, A.Ələsgərov, A.Musayev, Ə.Nuriyev, M.Meybullayev, V.Niftullayev, İ.İbrahimov, E.Hacızadə, E.İbrahimov. E.Quliyev, İ.Abbasov, T.Hüseynov, M.Atakişiyev, İ.Alıyev, B.Ataşov, A.Məhərrəmov, Ə.Əlirzayev, X.Hüseynova və başqalarının əsərlərində də tədqiqini tapmışdır.

Sahibkarlıq problemlərinin tədqiqi sahəsində əhəmiyyətli elmi və təcrübi nailiyyətlərin əldə olunmasına baxmayaraq, mövcud iqtisadi ədəbiyyatda bu fəaliyyətin formalaşmasının əsas təyinatları ilə bağlı vahid

metodoloji yanaşma işlənib hazırlanmamışdır. Eyni məsələlər ayrı-ayrı milli iqtisadiyyatlarla bağlı tədqiqatlarda da özünün elmi konsensusuna yetişməmişdir. Azərbaycan iqtisadiyyatında real sektorun davamlı inkişafında sahibkarlığın strateji rolunun artırılması problemləri yetərincə araşdırılmamışdır. İqtisadiyyatın ayrı-ayrı sektorları, xüsusən də, tikinti materialları sektorunda sahibkarlıq problemlərinin tədqiqi üzrə əlahidə tədqiqatlar yerinə yetrilməmişdir və elmi-təcrübi əhəmiyyət kəsb edən çoxsaylı kopmleks məsələlərin həlli də tamamlanmamış qalmaqdadır. Qeyd olunan problemlərin aktuallığı və onların öyrənilmə səviyyəsinin məhdud xarakter daşıması, həmçinin nəzəri tədqiqinin yetərsizliyi mövcud dissertasiya işinin mövzu seçimini və məqsədini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini milli iqtisadiyyatın inkişafında sahibkarlıqla bağlı problemlərin təhlili və qiymətləndirilməsi, mövcud potensialdan səmərəli istifadədə mütərəqqi bazar mexanizmlərinin tətbiqi üzrə nəzəri-metodoloji işləmələrin formalaşdırılması, müvafiq sahədə aparılan siyasətin konseptual əsaslarının təkmilləşdirilməsi və real sektorun davamlı inkişafında sahibkarlığın strateji rolunun artırılması ilə bağlı təklif və tövsiyələrin hazırlanması təşkil edir. Məqsədə nail olmaq üşün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- iqtisadiyyat sahələrinin bölgüsü və real sektorun strukturu üzrə yeni konseptual işləmələrin hazırlanması;
- sahibkarlığın spesifik fəaliyyət növü kimi mahiyyəti və formalaşması xüsusiyyətlərinin təhlil olunması;
- Azərbaycan iqtisadiyyatında real sektorun hazırkı vəziyyətinin təhlili, kapitallaşmanın qiymətləndirilməsi və inkişafın başlıca meyillərinin aşkarlanması;
- sahibkarlığın müasir inkişaf səviyyəsinin tədqiqi, onun bazar münasibətlərinin təkmilləşməsi və qloballaşma çağrışları zəminində başlıca dövlət tənzimlənməsi mexanizmlərinin müəyyən olunması və qiymətləndirilməsi;
- iqtisadi artımın davamlı təmin edilməsində real sektorun genişləndirilməsi imkanlarının aşkarlanması və bu istiqamətdə strateji istiqamətlərin müəyyən olunması;
- real sektorda davamlı inkişafın təmin olunmasında sahibkarlığın innovasiyalılığının yüksəldilməsinin strateji əhəmiyyətinin əsaslandırılması;
- insan resurslarından səmərəli istifadə və sahibkarlığın korporativ sosial məsuliyyət faktorlarının rolunun artırılması üzrə təkliflərin hazırlanması;

- ixrac yönümlü rəqabətqabiliyyətli real sektorun formalaşdırılması istiqamətində təklif və tövsiyələrin hazırlanması;

**Tədqiqatın obyektini** milli iqtisadiyyatın real sektorunda davamlı inkişafın təmin olunmasının əsas amili kimi sahibkarlıq fəaliyyəti təşkil edir.

**Tədqiqatın predmetini** dərinləşən qloballaşma və bazar münasibətləri şəraitində real sektorda sahibkarlığın strateji rolunun artırılmasına təkan verən amil və şərtlər təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** iqtisad elmi klassiklərinin, müasir dünya və ölkə alimlərinin real sektorun inkişafında sahibkarlığın strateji rolu ilə bağlı tədqiqat əsərlərində təqdim olunmuş nəzəri konsepsiyalar təşkil edir. Tədqiqat işində, həmçinin Azərbaycan Respublikasında sahibkarlığın inkişafının təmin olunması üzrə aparılan dövlət siyasətini təbliğ edən nəşrlərin və real sektorun potensialından səmərəli istifadə ilə bağlı aparıcı təşkilatların elmi-metodiki materiallarından, müvafiq qanunvericilik sənədlərindən və normativ-hüquqi aktlardan, digər çoxsaylı elmi-informatik ədəbiyyat və nəşrlərdən geniş istifadə olunmuşdur.

Tədqiqat prosesi sistemli və məntiqi yanaşmada ümumelmi funksional, statistik və qrafik metodlar, müşahidə üsulu, ekspert qiymətləndirməsi, müqayisəli iqtisadi təhlil, həmçinin digər iqtisadi təhlil alətləri və mexanizmlərindən istifadə olunmaqla kompyuter texnikası və müasir proqram təminatı vasitələrinin köməyi ilə aparılmışdır.

**Tədqiqatın informasiya bazası** Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı üzrə müvafiq dövlət proqramlarına, sahibkarlığın, iqtisadiyyatın real sektorunun inkişafı ilə bağlı İqtisadiyyat, Kənd Təsərrüfatı, Maliyyə nazirlikləri, Dövlət Statistika Komitəsi və digər aidiyyəti dövlət qürumlarının, onların təsərrüfat sübyektlərinin statistik iqtisadi-texniki göstəriciləri barədə rəsmi materiallarına, analitik məlumat və hesabatlarına, sahə üzrə mühüm elmi ədəbiyyatlara, ixtisaslaşmış beynəlxalq təsisatların dövri nəşrlərinə və İnternet şəbəkəsinin müvafiq veb-saytlarının informasiyalarına, habelə müəllifə məxsus hesablama və təhlil materiallarına əsaslanır. Bir sıra cədvəl və diaqramlar orjinal səciyyə daşıyır, statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** iqtisadiyyatın real sektorunun davamlı inkişafında sahibkarlığın strateji rolunun artırılması problemlərinin öyrənilməsini, bu istiqamətdə səmərəliliyi yüksəldən potensial imkanların aşkarlanaraq sistemləşdirilməsini və məsələ ilə bağlı müqabil həll mexanizmlərini müəyyənləşdirən metodiki yanaşmaları, təkmilləşdirici elmi, nəzəri və tətbiqi işləmələri əhatə edir. Dissertasiya işinin elmi yenilikləri

aşağıdakılardan ibarətdir:

- iqtisadiyyat sahələrinin bölgüsü, real sektorun strukturu, sahibkarlığın spesifik fəaliyyət növü kimi mahiyyəti ilə bağlı çoxsaylı elmi-nəzəri yanaşmalar ümumiləşdirilərək yeni konseptual işləmələr hazırlanmış, sahibkarlıq münasibətlərinin müasir təkmilləşməsi aspektindən müvafiq anlayışlara müəllif tərifləri formalaşdırılmış, sahibkarın iqtisadi inkişaf mexanizminin mərkəzi fiquru, hərəkətverici qüvvəsi olması əsaslandırılmaqla, onun funksional təyinatı iqtisadçı, siyasi iqtisadçı, psixoloq və başqa sahibkarların nöqteyi-nəzərincə dəyərləndirilmişdir.
- real sektorda sahibkarlığın inkişafı sahəsində korporativ, maliyyə, təşkilati, klaster strukturlu təhllilər əsasında nəzəri nəticələr və metodoloji təyinatlar işlənilmiş, onun dinamikasına, təşkilati-iqtisadi amil olaraq, sahibkarlığın təsirinin ayrı-ayrı aspektləri və habelə yeni dövlət tənzimlənməsi mexanizmləri müəyyənləşdirilmişdir;
- bazar münasibətlərinin təkmilləşməsi və qloballaşma çağrışları zəminində Azərbaycan iqtisadiyyatında real sektorun hazırkı vəziyyətinin təhlili aparılmış, onun kapitallaşması qiymətləndirilmiş və inkişafının başlıca meyilləri aşkarlanmışdır;
- ixrac yönümlü rəqabətqabiliyyətli real sektorun davamlı inkişafında sahibkarlığın rolunun artırılması, tikinti materialları sektorunda istehsal sahələrinin modernləşdirilməsi və diversifikasiyası üçün investisiya stimullaşdırmasının yüksəldilməsi, innovasiya sahibkarlığının dəstəklənməsi ilə əlaqədar müvafiq "İnnovasiya fondu"nun təsis olunması, insan resurslarından səmərəli istifadə və korporativ sosial məsuliyyətin artırılması, kölgə sahibkarlığını təcrid edən, vençur kapitalını dəstəkləyən institusional tədbirlərin gücləndirilməsi, dövlət tərəfindən sahibkarlara maliyyə-əmlak yardımını təmin edən təsisatların genişləndirilməsi (*biznes inkubatorları, lizinq təşkilatları, texnologiya parkları, sənaye zonaları və poliqonları, tədris, konsultasiya mərkəzləri və s.*), istehsal və xidmət üçün ehtiyat sahə və torpaq fondlarının ayrılması, təbii sərvətlərin istismarına girişlərin asanlaşdırılması, kreditalma və işgüzar informasiyaya giriş şərtlərinin sadələşdirilməsi (*rəqiblər, məhsul və s. haqqında informasiya təminatı*), elm və istehsalat arasında əlaqələrin inkişafı sahəsində şaquli siyasətin məhdudlaşdırılması hesabına üfiqi siyasət prinsiplərinin və alətlərinin genişləndirilməsi, işçilərin hüquqlarının müdafiə olunması mexanizmlərinin sərtləş-

dirilməsi, klasterləşdirmə vasitəsi kimi kiçik və orta müəssisələrin subpodratçı qismində cəlb edilməsinə dəstək tədbirlərinın reallaşdırılması, sahibkarlığın normativ-hüquqi bazasının təkmilləşdirilməsi, bu sahədə "Sənaye-innovasiya fəaliyyətinə dövlət dəstəyi haqqında" və "İnnovativ sahibkarlığa dövlət dəstəyi haqqında" əlahiddə qanunların işlənib hazırlanması istiqmətində konkret təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** onunla bağlanılır ki, dissertasiya işinin əsas səciyyəsi, metodiki yanaşmaları, nəticə və təklifləri iqtisadiyyatın real sektorunda sahibkarlığın strateji rolunun artırılması üzrə mövcud tədqiqatları zəngiləşdirməyə imkanlar yaradır. Həmçinin tədqiqatla hasil edilən yeni nəzəri baxışlardan bir sıra iqtisadiyyat fənlərinin tədrisində əlavə dərs vəsaiti qismində istifadə oluna bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işinin elmi nəticələri, təklif və tövsiyələri real sektorun davamlı inkişafı və iqtisadiyyatda sahibkarlığın strateji rolunun artırılması sahəsində aparılan sənaye-istehsal və innovasiya siyasətində, müvafiq dövlət proqramlarının, strategiya və konsepsiyaların hazırlanmasında, habelə şirkətlərdə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və planlaşdırlan ETTKİ sferasında alternativ elmi mənbə kimi istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi.** Tədqiqat işinin bir sıra mühüm məsələləri və ayrıca elmi nəticələri yazılı məruzə şəklində Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, Sənaye və Sahibkarlıq Komitəsinə və Azərbaycan Respublikası Sahibkarlar (*İşəgötürənlər*) Təşkilatları Milli Konfederasiyasına təqdim olunmuş, müvafiq aprobasiyadan keçərək müəyyən təkliflərin tətbiqi haqqında arayışlar alınmışdır. (*Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin 011/3-64 saylı, 04.03.2016-cı il tarixli arayısı və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının 96 nömrəli, 18.03.2016-cı il tarixli arayısı*). Dissertasiya işinin əsas nəticələri müxtəlif elmi-praktiki konfranslarda, dəyərmi masalarda məruzə edilmiş və tədqiqatin nəticələri üzrə ümumilikdə 10 elmi əsər o cümlədən xaricdə 2 elmi məqalə dərc edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya 184 səhifədə şərh edilməklə giriş, 3 fəsil, nəticə və 142 adda ədəbiyyat siyahısından ibarətdir. Mətndə 5 diaqram, 4 sxem, 4 şəkil və 14 cədvəl verilmişdir. İşin strukturu və məntiqi dissertasiyanın mündəricatında əks olunaraq tədqiqatın predmeti və məqsədi ilə uzlaşdırılmışdır.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı, tədqiqatın məqsədi və vəzifələri, predmeti, problemin öyrənilmə vəziyyəti, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, işin aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiyanın "**Real sektorun təsnifatı və konseptual əsasları**" adlanan I fəslində iqtisadiyyat sahələrinin bölgüsü və real sektorun strukturu barədə araşdırmalar aparılaraq yeni nəzəri işləmələr həyata keçirilmiş, sahibkarlığın spesifik fəaliyyət növü kimi mahiyyəti, formalaşması xüsusiyyətləri tədqiq olunmuşdur.

Hər bir ölkənin iqtisadiyyatı qarşılıqlı əlaqədə olan sahələrin vahid kompleksindən ibarətdir. Milli və tarixi ənənlərindən, coğrafi və geosiyasi şəraitindən, əhalinin əmək vərdişlərindən asılı olmayaraq hər bir dövlət özünün təsərrüfat sahələri kompleksini yaradır ki, buna digər ölkələrlə əməkdaşlıq böyük təsir göstərir. Tədqiqatlar əsaslandırır ki, iqtisadiyyatın sahə bölgüsü əməyin ictimai bölgüsünün tarixi inkişaf prosesinin nəticəsidir. Cəmiyyətin və iqtisadiyyatın inkişafı, istehsalın ixtisaslaşmasının dərinləşməsi yeni sahələrin formalaşmasına gətirib çıxarır.

Azərbaycan iqtisadiyyatı sektoral bölgüdə, əsasən, sənaye, tikinti, kənd təsərrüfatı, ticarət, nəqliyyat və xidmət sahələrindən ibarətdir. Ölkə iqtisadiyyatında müxtəlif illərdə bu sahələr üzrə pay tutumu aşağıdakı cədvəldə göstərilmişdir (cədvəl 1).

**Cədvəl 1.**

**Azərbaycan Respublikasında iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə pay tutumu** *(faizlə)*

| **İqtisadiyyatın sahələri** | **İllər** | | |
|---|---|---|---|
| | **1995** | **2005** | **2015** |
| sənaye | 27.2 | 49,4 | 34,0 |
| tikinti | 3.7 | 9,4 | 12,1 |
| ticarət; nəqliyyat vasitələrinin təmiri | 5.3 | 6.1 | 10,0 |
| kənd təssərrüfatı | 25.3 | 9,2* | 6,2 |
| nəqliyyat və anbar təsərrüfatı | 17,4** | 7,4** | 5,4 |
| informasiya və rabitə | - | - | 2,0 |
| turizm və ictimai iaşə | 0,7 | 0,5 | 2,7 |
| digər sahələr | 20,4 | 18,0 | 27,6 |

* balıqyetişdirmə də daxil olmaqla

** rabitə də daxil olmaqla

Cədvəl 1.1-dən göründüyü kimi, ölkə iqtisadiyyatın aparıcı sahəsi sənayedir. Bunun da əsas hissəsi neft sektoru ilə bağlıdır. Lakin ölkədə aparaılan iqtisadiyyatın şaxaləndirilməsi siyasəti nəticəsində qeyri-neft sektoru inkişaf etmişdir. Hazırda burada ÜDM-in 70%-ə qədəri təmin olunur.

İqtisadi və elmi-populyar ədəbiyyatda "iqtisadiyyatın real sektoru" anlayışına çox tez-tez rast gəlinir. "Real iqtisadiyyat" termini XX əsrin ikinci yarısında iqtisadiyyaın maliyyə sektorunun yüksək templərlə inkişaf etməsinə cavab olaraq meydana çıxmışdır. Müasir iqtisad elminin "real sektor" və "maliyyə sektoru" terminlərinin əsasında iqtisadiyyatın şərti olaraq iki - real və nominal sektorlara bölünməsi dayanan neoklassik konsepsiyadan götürüldüyü də iddia edilir. Bu konsepsiyaya görə, nominal sektor məhsul istehsalı sahəsinə xidmət edir. Lakin müasir iqtisadi nəzəriyyələrdə real sektorun sərhədlərinə, onun strukturuna və tərkibinə vahid münasibət hələ də yoxdur.

Aşağıda iqtisadiyyatın real və maliyyə sektorlarını əlaqələndirən iqtisadi sistemin struktur sxemi verilmişdir (*sxem 1*).




**Sxem 1. İqtisadiyyat sistemi.**

Tarixə nəzər saldıqda görərik ki, iqtisad klassikləri öz əsərlərində iqtisadi fəaliyyətdə sahibkarlığın mahiyyəti və rolu barədə müxtəlif elmi-nəzəri təriflər irəli sürmüşlər. Bu təriflərin hər biri ayrıca və ümumi tədqiqatların bəhrəsi kimi müvafiq sahədə müəyyən əsaslandırmaları ərsəyə gətirmiş və elmi dövriyyəyə bu sferada zəruri olan biliklər yönəltmişdir.

"Sahibkarlıq" anlayışını ilk dəfə Fransa əsilli iqtisadçı R.Kantilyon XVIII əsrdə işlətmişdir. O, sahibkarlığı daimi risk şəraitində əmtəə təklifi və tələbat arasında uyğunluğu təmin etməyə yönələn iqtisadi fəaliyyət kimi

dəyərləndirmiş, bazardan istehsal vasitələri əldə edərək onu kapitala çevirən adamı isə sahibkar adlandırmışdır. Sahibkarlıq nəzəriyyəsinin işlənməsinə A.Smit, J.Sey, M.Veber, Y.Şumpeter F.Hayek P.Druker və başqaları da mühüm töhfələr vermişdir.

J.Sey A.Smitin məşhur "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı əsərini öyrənərək, sahibkarla menecerin funksiyalarını fərqləndirmişdir. O, hesab edirdi ki, sahibkarın əməyi yaradıcı, - mencerin əməyi - yeknəsəkdir, yorucudur.

Sahibkarın sosial-iqtisadi prosesdə xüsusi funksiya yerinə yetirdiyi qənaətində olan Y.Şumpeterin rəyinə görə, sahibkarın davranışlarının özünəməxsusluğu iki məqamla bağlıdır. Əvvəla, bu davranışın obyekti vardır: sahibkar olmaq başqalarının etmədiyini etməkdir. İkincisi isə sahibkar olmaq başqalarının etmədiyi kimi etməkdir. Nəhayət, üçüncüsü, sahibkar olmaq başqalarının etmədiyini etməkdir ki, bu da adi dövriyyə çərçivəsində sadəcə qiymət vermək bacarığı ilə bağlı deyil, əksinə, keyfiyyətcə başqa qabiliyyətlər tələbi ilə əlaqədardır.

Nobel laureatçısı F.Hayekin fikrincə, sahibkar təsəsrrüfatçı subyekt kimi gəlir əldə etməyin başqa təsərrüfatçı subyektlər tərəfindən hələ diqqətə alınmayan müxtəlif imkanlarını aşkara çıxarmaq səyi, bacarığı və xüsusiyyəti ilə fərqlənir.

P.Druker isə hesab edirdi ki, sahibkarlığı nə elmə, nə də incəsənətə aid etmək olar. Bu, konkret praktik fəaliyyətdir. Əlbəttə, sahibkarlığın öz biliklər bazası vardır, bu, məqsədlərə çatmaq üçün vasitədir.

Sahibkarlıq və sahibkarlar haqqında C.Keyns, K.Vesper, G.Pinşot, P.Hizriç, M.Pitere, A.Hoskinq və başqaları kimi məşhur əcnəbi alimlərin baxışları mühüm elmi və praktiki maraq kəsb edir. Həmin alimlərin əsərlərində də spesifik fəaliyyət növü kimi sahibkarlığın mahiyyəti və formalaşması xüsusiyyətləri ilə bağlı yeni mülahizələr irəli sürülmüşdür.

Müasir Azərbaycan iqtisad elmində sahibkarlığın nəzəriyyə və praktikasını tədqiq edən alimlərdən A.Məhərrəmova görə, sahibkarlıq iqtisadi kateqoriya kimi, iqtisadiyyatla məşğul olan bazar subyektləri arasında çoxsahəli qarşılıqlı münasibətləri əks etdirir. Sahibkarlıq fəaliyyətinin təsərrüfatçılıq metodu kimi başlıca şərti onun təsərrüfat subyekti kimi müstəqil və azad olması ilə xarakterizə olunur

Aparılan təhlillər göstərir ki, sahibkarlığın özünəməxsus böyüklü-kiçikli məqsəd və vəzifələri vardır. Əmətəə və xidmətlər istehsalı, gəlir, nüfuz, biznesin inkişafı sahibkarlığın nisbətən mühüm məqsədləridir.

Aşağıda təqdim edilən şəkildən sahibkarlığın məqsədləri fonunda bu qarşılıqlığı aydın təsəvvür etmək mümkündür:




**Şəkil 1. Sahibkarlığın məqsədləri.**

Göründüyü kimi, bütün bu araşdırmalar nəticə etibarı ilə spesifik fəaliyyət növü kimi sahibkarlığın mahiyyəti, dəyəri və həmçinin onun formalaşması və inkişafı xüsusiyyətləri ilə bağlı əhəmiyyətli elmi yanaşmaları özündə ehtiva edir. Sahibkarlıqla bağlı toplanmış nəzəri baxışlar ümumiləşdirilərək, sahibkara belə bir tərif verilə bilər: sahibkarlıq vətəndaşların qazanc və ya şəxsi gəlir əldə etməyə yönəlmiş, öz adından risk edərək özünün əmlak cavabdehliyi və ya hüquqi şəxs-müəssisə adından, onun əmlak cavabehliyinə əsaslanan təşəbbüskar, müstəqil fəaliyyətidir.

Sahibkara müxtəlif aspekt və peşə istiqamətlərindən yanaşmaq olar. İqtisadçıya görə, sahibkar o şəxsdir ki, vəsaiti, əməyi, materialları və s.-ni müəyyən bir şəkildə birləşdirərərək, onların məcmu dəyərini artırır. Siyasi iqtisadçıya görə isə sahibkar o şəxsdir ki, nəinki özünün, həm də millətinin sərvətinin artırır, resurslardan daha yaxşı istifadə etmək, itkiləri azaltmaq üsulları tapır, yeni iş yerləri yaradır. Psixoloqun nöqteyi-nəzərinə görə, sahibkar o şəxsdir ki, onu müəyyən maraqlar - məsələn, həyatda nəyəsə nail olmaq, yeni nəyisə dadmaq, özünü təsdiq etmək və ya müstəqillik qazanmaq hərəkətə gətirir. Sahibkarların özlərinin nöqteyi-nəzərinə görə isə, o, təhdid mənbəyi, təhlükəli rəqib və ya tərəfdaş, tədarükçü, alıcı, yaxud heyifsilənmədən pul yatırılası maraqlı ideyaları olan sadə bir insandır.

Aparılan təhlillər göstərir ki, sahibkarlıq böyük inkişaf tarixi keçmişdir. Ayrı-ayrı ölkə və regionlarda bu tarixin ümumi və fərqli inkişaf mərhələləri yaşanmışdır. Lakin son iki-üç əsrdə səhmdar kapitalının

yaranması, bankçılığın inkişafı onun dayanıqlı şəkildə formalaşması üçün əhəmiyyətli zəmin olmuşdur.

Tədqiqatda sahibkarlıq fəaliyyətinin reallaşdırılmasının əsasında dayanan sahibkarın özünün elmi-təhlili şərhi verilmiş, həmçinin Azərbaycanda sahibkarlığın tarixi və neftin sənayeləşmə erasında yaranan milli sahibkar sinfi haqqında elmi mülahizələr irəli sürülmüş, onun mahiyyəti, formalaşması xüsusiyyətləri ilə bağlı ümumiləşdirmələr aparılmışdır.

Bütün bu təhlilləri yekunlaşdıraraq deyə bilərik ki, sahibkarlıq iqtisadi fəaliyyətin xüsusi növü kimi çıxış edir. Çünki onun başlanğıc mərhələsi, bir qayda olaraq, yalnız ideya - təfəkkür fəaliyyətinin sonradan maddiləşmiş forma alan nəticəsi ilə bağlıdır.

Dissertasiyanın "**Sahibkarlıq real sektorun davamlı inkişafının strateji resursu kimi**" adlanan II fəsli Azərbaycan iqtisadiyyatında real sektorun hazırkı vəziyyətinin, inkişaf meyillərinin təhlili dəyərləndirilməsinə, sahibkarlığın müasir inkişaf səviyyəsinin və onun dövlət tənzimlənməsi mexanizmlərinin tədqiqinə həsr olunmuşdur.

Azərbaycanın müasir iqtisadiyyatı bir sistem olaraq XIX əsrin ikinci yarısında neftçıxarmanın sənaye erasına daxil olmasından başlanğıc alır. Özünün yüksəliş həddinə isə XX əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə yetişir. Bu zaman Azərbaycanın sosial-iqtisadi inkişafında nəhəng sıçrayış baş vermiş, 1969-1982-ci illər ərzində respublikanın ümumi daxili gəlirində elmtutumlu, texnoloji məmulatların payı 0,2%-dən 26%-ə çatdırılmışdı. Həmin dövr "tikinti bumu" kimi də əlamətdar olmuş və bu tarixi mərhələdə tikinti materialları istehsalında 1,5 dəfədən çox artım əldə edilmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində və ondan sonrakı ilk illərdə, bütövlükdə milli iqtisadiyyatda olduğu kimi, real sektorda da bir sıra sahələrdə dərin böhranla müşayiət edilən tənəzzül meyilləri baş vermiş, lakin Ulu Öndər Heydər Əliyevin əzmkar fəaliyyəti nəticəsində bunların qarşısı alınmış, respublika davamlı iqtisadi inkişaf yoluna qədəm qoymuş, bu zaman "Əsrin müqaviləsi" respublikanın iqtisadi böhrandan çıxarılmasında mühüm rol oynamışdır. Belə ki, 1995-2003-cü illərdə ÜDM 90,1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2% artmışdır.

Prezident İlham Əliyevin sosial-iqtisadi inkişafı sürətləndirmək istiqamətində təşəbbüsləri mühüm nailiyyətlərə vəsilə olmuş, bazar iqtisadiyyatına keçidin qısa müddətdə başa çatdırılmasına, ölkəyə investisiya axınının artmasına gətirib çıxarmışdır. Keçid dövrünün sonuncu - 2009-cu ilinin iqtisadi nəticələrinə görə, bir ildə Azərbaycana yatrılmış 9,2 milyard

(ABŞ dolları) həcmində investisiyanın 1,9 milyardı xarici, 7,3 milyardı isə daxili investisiya olmuşdur. Sonrakı dövrlərdə də ölkə iqtisadiyyatında sanbalı irəliləyiş əldə edilmiş, son 12 il ərzində ÜDM-in həcimi 12 dəfə artmışdır. Bu artımda real sektorun da payı yüksək olmuş, onun həcminin genişlənməsində tikinti materialları sənayesi əhəmiyyətli rol oynamışdır.

Statistik təhlil göstərir ki, 2009-2014-cü illərdə Azərbaycanda ümumi tikinti işlərinin həcmi 2,5 dəfə artaraq 3,4 milyard manatdan 8,7 milyard manata çatmışdır.

Aşağıdakı cədvələdə 2005-2015-ci illərdə Azərbaycanda tikinti materialları istehsalının dinamikası verilmişdir:

**Cədvəl 2.**

**Azərbaycan 2005-2015-ci illərdə tikinti materialları istehsalı**

(*milyon manat*)

| **Göstərici/İllər** | **2005** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|---|---|
| Tikinti materiallarının istehsalı | 135,4 | 452,2 | 280,7 | 323,0 | 390,2 | 458,3 | 425,7 |
| *Əvvəlki ilə faizlə* | x | 22,3 | -37,9 | 15,1 | 20,1 | 17,5 | -7,1 |

Araşdırmalar göstərir ki, tikinti sənayesinin əksər müəssisələri respublikada tikinti-quraşdırma işlərinin təxminən 60%-nin təmərküzləşdiyi Abşeronda yerləşir. Bu müəssisələrdən biri də nüfuzlu sahibkarlıq subyekti kimi tanınan "Mətanət A" şirkətidir. 17 illik tarixə malik şirkətin innovasiya və yüksək texnologiyalara əsaslanan məhsulları daxili bazarda böyük tələbata malikdir. "Mətanət A" brendli mallar Azərbaycanda aparılan tikinti, quruculuq işlərində geniş istifadə edilməklə yanaşı, xarici ölkələrə də ixrac olunur. "Şirkətin 15 illik fəaliyyətinə nəzər yetirdikdə, ilk növbədə, diqqəti innovasiya və ixtiralara əsaslanan, elmi tədqiqatlara söykənən fəaliyyət, ciddi qloballaşma tendensiyaları, inşaatın keyfiyyətini yüksəldəcək məhsullar istehsal edən yeni zavodların qurulması, yeni iş yerlərinin yaradılması, zəngin məhsul çeşidi və yüksək korporativ sosial məsuliyyət yönümlü fəaliyyətlər cəlb edir. Çox sevindirici haldır ki, artıq milli şirkətlərimiz dövlətin yaratdığı əlverişli imkanlardan lazımınca faydalanaraq rəqabətqabiliyyətli şirkətə çevrilir, istehlakçıları keyfiyyətli və innovativ yerli məhsullarla təmin edə bilir və qloballaşaraq ölkənin iqtisadi reputasiyasının yüksəlməsinə töhfə verirlər" (*akad. Z.Səmədzadə).*

Azərbaycan iqtisadiyyatında real sektorun mövcud vəziyyətinin və inkişaf meyillərinin təhlili bir daha göstərir ki, ölkədə məcmu qənaətin

məhsuldar investisiyaya çevrilməsi kanallarının qeyri-təkmilliyi iqtisadi artımın təmin olunmasının və kapital yığımının ən mühüm problemləri sırasındadır. Ona görə də investisiyalaşmanı daha da irəlilətmək məqsədi ilə qeyri-neft sektorunda ağırlıq mərkəzi real sektorun üzərinə keçid etməlidir. Belə olan təqdirdə real sektorun həqiqi çevrədə reinvestisiya imkanlılığı da artacaqdır.

Hazırda sahibkarlığın müasir inkişaf səviyyəsini bir çox amillər səciyyələndirir. Bu sırada yüksək texnologiyaların, xüsusən də, informasiya texnologiyalarının geniş tətbiqi mühüm əhəmiyyətə malikdir. Buna çoxsaylı misallardan biri kimi, son illərdə sahibkarlıq fəaliyyətinin internet-sahibkarlıq kimi əlahiddə xüsusiyyətli, yeni bir istiqamətinin geniş yayılması göstərilə bilər.

Müasir sahibkarlıq fəaliyyətini dövlət tənzimlənməsindən kənarda təsəvvür etmək mümkün deyildir. Hər bir ölkə iqtisadiyyatın idarə edilməsində öz yolu ilə gedir və müxtəlif metodları sınaqdan keçirir.

Dövlət tənzimlənməsi sosial proseslərdən irəli gəlir, Əhalinin rifahı və məşğulluğu problemi dövlətə və sahibkara eyni dərəcədə toxunur ki, tənzimləmə və planlaşdırma olmasa, onları həll etmək mümkün deyildir. Sahibkar makrosəviyyədə iqtisadiyyatın inkişafını planlaşdırmağa borclu olan müasir dövlətin rolunu aydın dərk etməli, iqtisadi məcburetmə tədbirlərinə əməl etməlidir.

Onu da nəzərə almaq lazımdır ki, sahibkarlığın hüquqi tənzimlənməsində gərəkli səviyyənin əldə edilməsi ölkənin təkcə indiki deyil, həm də gələcək sosial-iqtisadi həyatının aktual problemidir. Bundan başqa, bütün maddi istehsal sahələrində və sosial sferada fəaliyyətin optimallığına, rasionallığına və daha yaxşı balanslaşdırılmasına nail olmaq məqsədilə sahibkarlığın hüquqi tənzimlənməsi vacibdir. Sahibkarlığın dəstəklənməsinin inkişaf etmiş infrastrukturu, sahibkarlıq fəaliyyətinin inkişafının stimullaşdırılmasının hüquqi mexanizmləri və sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsinin, həmçinin sahibkarlıq sahəsində ictimai və dövlət maraqlarının effektiv sistemi də daxil olmaqla, sahibkarlıq fəaliyyətinin makromühitinin yaradılması üçün təşkilati-hüquqi vasitələr kompleksinin formalaşdırılması da zəruri hesab olunur.

Dissertasiyanın "**Azərbaycan iqtisadiyyatının real sektorunda sahibkarlığın davamlı inkişafının strateji aspektləri**" adlanan III fəslində iqtisadi artımın davamlı təmin edilməsində real sektorun genişləndirilməsinin imkanları ilə bağlı təhlil və araşdırmalar aparılır, bu sahədə insan resurslarından səmərəli istifadə və sahibkarlığın korporativ sosial məsuliyyəti faktorlarının rolunun artırılmasının, habelə sahibkarlığın

innovasiyalılığının yüksəldilməsinin strateji prioritetliyi əsaslandırılır. Tədqiqatın nəticəsi olaraq ixrac yönümlü rəqabətədavamlı real sektorun formalaşdırılması ilə bağlı müvafiq təkliflər irəli sürülür.

Elmi ədədbiyyatda iqtisadi artım problemi, onun sahibkarlığın inkişafı ilə qarşılıqlı əlaqəsi, adətən, əlahiddə tədqiq olunur. Bu da əsas amillərin iqtisadi artımın təmin edilməsinə təsirini aşkara çıxarmağa imkan vermir. Bazar iqtisadiyyatında iqtisadi artım və ETT-nin inkişafına, hər şeydən əvvəl, sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi hesabına nail olunur. Bu da sahibkarlığın müasir forma və metodlarının, onun iqtisadi artıma təsir göstərərn ayrı-ayrı istiqamətlərinin əsaslandırılması məsələlərinin ciddi elmi tədqiqini zəruri edir.

İqtisadi artımın davamlı təmin edilməsində real sektorun genişləndirilməsinin imkanları böyükdür. Bunun üçün milli iqtisadiyyatdakı mövcud istehsal amillərindən səmərəli istifadə edilməli, zəruri sosial, iqtisadi və təşkilati zəmin daha da möhkəmləndirilməlidir. Real sektorun genişləndirilməsi imkanlarından istifadə etmək üçün strateji itiqamətli bir sıra sosial, iqtisadi və təşkilatı tədbirlərin həyata keçirilməsi vacibdir. Bu sırada innovasiyalara daha geniş meydan açılmalıdır. Fikrimizcə, əvvəlki nailiyyətlərə əsaslanaraq, ölkədə innovasiya təşəbbüslərinin ardıcıllığını təmin etmək üçün daha təsirli tədbirlər və mexanizmlər müəyyənləşdirməlidir. Bunlar sırasında aşagıdakılar nəzərdən keçirilə bilər:

- ❖ innovasiyalara rəqabətqabiliyyətli daxili bazarın yaradılmasıı, innovasiya prosesi iştirakçılarının qarşılıqlı fəaliyyətinin sahmana salınmasını özündə ehtiva edən bazar tələbatının stimullaşdırılması tədbirləri;
- ❖ ETTKİ və innovasiya layihələri üçün vauçerlər sisteminin, innovasiya fəallığı olan birliklərə yönəlik dövlət tədarükləri bazarı kimi tələbatın dövlət tərəfindən dəstəklənməsinin yeni sxemlərinin təqdim olunması;
- ❖ tələbatın bir sənaye sahəsində istifadə edilən mövcud əlaqələndirilmiş və razılaşdırılmış mexanizmlərinin başqa sektorlara köçürülməsi;
- ❖ ixtiraların kommersiyalaşdırılması məqsədilə elm və biznes nümayəndələrinin birgə tədqiqat layihələinin maliyyələşdirilməsi.

İnnovasiya siyasətinin həyata keçirilməsində klaster yanaşması da mühüm əhəmiyyətlidir. Klaster siyasətinin əsasında respublikanın və onun bölgələrinin yüksək artım və rəqabətqabiliyyətlilik potensialı olan perspektivli ixtisaslaşmış fəaliyyət sahələri dayanmalıdır. Fikrimizcə, Azərbaycanda klasterlərin inkişafı dövlət və özəl sektor partnyorluğu çərçivəsində mümkündür. Klasterlərin yaradılmasına dövlət həm dolayı vasitələrlə, həm

də birbaşa təsir göstərə bilər. Klaster çərçivəsində dövlət və özəl sektor əməkdaşlığı modeli aşağıdakı göstərilmişdir (*şəkil 2*).




**Şəkil 2. Klaster çərçivəsində dövlət və özəl sektor əməkdaşlığı modeli.**

Azərbaycanda sahibkarlığın innovasiyalılığının yüksəldilməsi məqsədi ilə aparılan tədqiqatları ümumiləşdirərək aşağıdakı strateji istiqamətləri müəyyən etmək mümkündür:

- innovasiya fəaliyyətini dəstəkləyən dövlət təsisatlandırmalarının genişləndirilməsi;
- milli innovasiya sisteminin yaxşılaşdırılması, qarşılıqlı peşəkar əlaqələrin inkişaf etdirilməsi;
- innovasiyaların köməyi ilə iqtisadiyyatın şaxələndirilməsi strategiyasının dərinləşdirilməsi;
- innovasiya təşəbbüslərinin ardıcıllığını təmin etmək üçün daha təsirli mexanizmlər müəyyənləşdirilməsi;
- elmi-tədqiqat və sınaq-konstruktor müəssisələri üçün vergi stimullaşdırılmasının davam etdirilməsi;
- regional innovasiya institutlarının təsisatlandırılması, innovativ inkişafın təminatında klasterləşdirmə üzrə dövlət tənzimlənməsi komissiyasının yaradılması;
- "Sənaye-innovasiya fəaliyyətinə dövlət dəstəyi haqında" və "İnnovativ sahibkarlığa dövlət dəstəyi haqında" əlahiddə qanunların işlənib hazırlanması;
- elm və istehsalat arasında əlaqələrin inkişafı sahəsində şaquli siyasətin məhdudlaşdırılması hesabına üfiqi siyasət prinsiplərinin və alətlərinin genişləndirilməsi.

Aparılan təhlil və araşdırmalarla həm də əsaslandırılır ki, Azərbaycanda sahibkarlığın inkişafında insan resurslarından səmərəli istifadə və

korporativ sosial məsuliyyət - KSM amillərinin rolu mühümdür və bu sırada daha gücləndirici tədbirlər görülməlidir.

Ölkədə ixrac yönümlü rəqabətədavamlı real sektorun formalaşdırılmasının mühüm istiqaməti olaraq müvafiq model hazırlamaq olar. Azərbaycan Respublikasının iqtisadi inkişaf modelinin özəllikləri nəzərə alınmaqla real sektorda rəqabətədavamlı ixrac yönümlü model aşağıdakı formada tədqim olunur:

Öncə bu modeldə aşağıdakı təyinatlardan istifadə edək:

| | |
|---|---|
| ***P*** | - qiymətlər səviyyəsi (*baza indeksi*); |
| ***Y*** | - real buraxılış; |
| ***İnc*** | - aqreqasiyalı gəlir; |
| ***g*** | - birbaşa xərclər əmsalı; |
| ***v*** | - orta nominal əməkhaqqı; |
| ***w*** | - dünya ixrac qiyməti; |
| ***Ex, Im*** | - müvafiq ixrac və idxalın real həcmi. |

Bu dəyişənlər ixracyönümlü sektoru (*İYS*), daxiliyönümlü sektoru (DYS) və təbii inhisarlar sektorunu (*TİS*) xarakterizə edərək **e, d, m** indeksləri ilə müşayiət olunacaqdır.

Hesab edək ki, İYS-in real buraxılışı ixrac göndərişlərindən, həmçinin DYS və TİS üçün məhsulların tədarükündən ibarətdir:

$$\mathbf{Y_i = E_{xp}(W_e) + Y_{ed} + Y_{em}} \qquad (1)$$

Burada $\mathbf{E_{xp}}$ - ixracın real həcmi İYS məhsullarının dünya qiymətlərindən asılıdır, DYS və TİS üçün məhsulların tədarükü isə bu sektorların real buraxılışlarının birbaşa məsrəflər əmsalı ilə bağlıdır:

$$\mathbf{Y_{ed} = g_{ed}Y_d, Y_{em} = g_{em}Y_m}$$

Digər tərəfdən, İYS-in real buraxılışı əmək və kapital resurslarının həcmi istehsal funksiyaları modeli ilə bağlıdır:

$$\mathbf{Y_e = F_e(\mathit{L_e, K_e})} \qquad (2)$$

Sektorlar arasında qarşılıqlı əlaqənin təsviri üçün aqreqat gəlir göstəricilərindən istifadə edəcəyik ki, bu da xarici və daxili bazarlara məhsul göndərişindən əldə edilən *gəlir* və iqtisadiyyatın digər sektorlarından məhsulların tədarükünə və idxal tədarükünə *məsrəflər* arasında *fərq* kimi formalaşır. İYS sektorunun aqreqat gəlirinin daha dəqiq bərabərliyi:

$$\mathbf{İnc_e = Ew_eEx(W_e) + p_eY_{ed} + p_eY_{em} - p_mY_{me} - p_dY_{de} - I_e + Inv_e} \qquad (3)$$

Burada: $\mathbf{Y_{me} = g_{me}Y_e, Y_{de} = g_{de}Y_e}$; resurslar və İYS üçün komplektləşdiricilər idxalına məsrəflər $\mathbf{I_e = Ep_{ei}Im_e}$ nominal mübadilə məzənnəsindən (***E***) və idxal edilən məhsulun ($\mathbf{\mathit{p_{ei}}}$) qiymət səviyyəsindən asılıdır, həm də bu zaman nəzərdə tutulur ki, idxal edilən resursların və komplektləşdiricilərin real həcmi İYS-nin buraxılışının real həcminə, eləcə də

idxal edilmiş məhsulların qiymətinə münasibətdə real mübadilə məzənnəsinə mütənasibdir, yəni $\mathbf{Im_e = g_e Y_{e,} = Y_e(}g_{e1}p_e/Ep_{ei} + g_{e1}\mathbf{)}$ burada $\mathbf{g_{e1}, g_{e1}}$ bəzi müsbət struktur əmsalları; İYS üçün kredit resurslarının ümumi həcmi: $\mathbf{Inc_e}$ İYS-nin əsas və dövriyyə kaitalında dövlət investisiyalarından və korporativ investisiyalardan yaranır.

Hazırda dünya təcrübəsində dövlətlərin ixrac ekspansiyasını genişləndirməyə yanaşmalarının bütöv bir kompleksi formalaşıb ki, bu da dövlətin ixraca maliyyə və təşkilat dəstəyində özünü göstərir. Ümumi görünüşdə bu: ixracın birbaşa və dolayı subsidiyalaşdırılması, kreditləşdirilməsi və sığortalanması, ixracatçılar və ixrac məhsulları istehsalçıları üçün vergi güzəştləri, elmi-texniki və təcrübə-layihə işlərinin maliyyələşdirilməsi, məlumat-məsləhət dəstəyi, ixracatçıların mənəvi mükafatlandırılmasından ibarətdir.

Hazırda əsas ixracyönümlü sahələrin, xüsusən də, tikinti sənayesi kompleksinin ixrac potensialının təhlili göstərir ki, müasir şəraitdə Azərbaycanda yerli məhsul və xidmətlərin ixracının srukturunu genişləndirmək və təkmilləşdirmək üçün aşkarda olan və asan səfərbər edilə biləcək resurslar yoxdur. Yəni dünya bazarında Azərbaycanın hazır məhsul və xidmətlərinin iştirakının genişləndirilməsi imkanları obyektiv olaraq məhduddur və ölkə iqtisadiyyatının ümumi vəziyyətindən asılıdır.

Tikinti materialları sənayesi sahəsində Azərbaycanın milli istehsal və ixrac potensialına uyğun müvafiq konsepsiyanın da hazırlanmasına ehtiyac vardır. Məhz bu sahədə yerli xammal mənbələrinə əsaslanan müvafiq istehsal resurslarının mövcudluğu ölkənin bu istiqamətdə də beynəlxalq əmək bölgüsündə iştirakına geniş imkan açır.

Aparılan təhllilər göstərir ki, “Mətənaət-A” şirkəti bu tələb transformasiyalarını yerinə yetirməkdə müvafiq şirkətlər sırasında öncül mövqedə dayanır. Bu isə indiki şəraitdə ona dünya bazarında qabacıl texnologiyalı məhsulların ixracının genşlənməsi üçün əlavə stimullar yaradır.

Aparılan tədqiqatlarla bir daha əsaslandırılırr ki, ixrac yönümlü rəqabətədavamlı real sektorun formalaşdırılması istiqamətində tikinti materialları sənayesinin əhəmiyyəti böyükdür. Sahənin ixrac potensialı zəminində hərtərəfli stumullaşdırılması və eyniliklə də sahibkarlığı gücləndirən dövlət dəstəyi nəticəsində bu sferanın milli iqtisadiyyatın inkişafındakı yeri və rolu möhkəmlənəcək, tikinti materialları sənayesi real sektorun mühüm qaynaq komponentinə çevrilərək ölkədə iqtisadi artımın yüksəlişinə yeni təkan verəcəkdir. Bunun üçün isə müasir şəraitdə dünya təsərrüfatında dövlətin xarici iqtisadi siyasətinin qurulmasının əsas konsepsiyası qarşılıqlı faydalı xarici ticarət əlaqələri üçün daha geniş üfüqlər açan və milli iqtisadiyyatın dinamik inkişafı üçün zəmin yaradan liberalizm və

proteksionizm alətlərinin çevik şəkildə birləşməsini ehtiva edən azad ticarət - fritrayder strategiyası aparılmalıdır. İxracın dövlət stimullaşdırması ilə bağlı xarici təcrübənin təhlili əsasında isbat olunur ki, sənayecə inkişaf etmiş bütün ölkələrdə real əmtəə dövriyyəsi sahəsində xarici ticarət siyasəti ixrac ekspansiyasına yönəlmişdir və bu tendensiya XXI əsrdə də bütün ölkələr, o cümlədən rəqabətədavamlı real sektorun formalaşdırılması mühüm istiqamət kimi reallaşdırılan Azərbaycanda da xarici ticarətin prioriteti olaraq qalacaqdır.

## Nəticə

Azərbaycan Respublikasında iqtisadiyyatın real sektorunun davamlı inkişafında sahibkarlığın strateji rolunun artırılması problemləri ilə bağlı nəzəri-metodoloji işləmələr yerinə yetirilərək aşağıdakı uyğun nəticələr əldə olunmuş, ölkədə sahibkarlıq fəaliyyətini təkmiləşdirmək üçün konseptual və tətbiqi təyinatlı müvafiq təkliflər irəli sürülmüşdür:

- ❖ iqtisadiyyat sahələrinin bölgüsü və onun sahə quruluşu üzrə məsələlərə yeni konseptual biliklər əlavə olunmuş, sahibkarlığın spesifik fəaliyyət növü kimi mahiyyəti və formalaşması xüsusiyyətləri təhlil edilmiş, çoxsaylı elmi-nəzəri yanaşmalar ümumiləşdirilərək real sektor anlayışına sahibkarlıq münasibətlərinin müasir təkmilləşməsi aspektindən yeni müəllif tərifi verilmişdir.
- ❖ sahibkarlıq anlayışına elmi, etimolololoji və semantik çərçivədə yanaşılaraq onun mahiyyəti yeni təhlil aspektləri ilə zənginləşdirilmiş, sahibkarlığın biznes ilə fərqli və umumi cəhətləri tədqiqatla ayırd edilərək həmin anlayışlar arasında sərhəd və təmaslar göstərilmişdir.
- ❖ sahibkarın iqtisadi inkişaf mexanizminin mərkəzi fiquru, hərəkətverici qüvvəsi kimi özünün də elmi-təhlili şərhi verilmiş, onun funksional təyinatı iqtisadçı, siyasi iqtisadçı, psixoloq və başqa sahibkarların nöqteyi-nəzərincə qiymətləndirilmişdir.
- ❖ iqtisadi artımın davamlı təmin olunmasında sahibkarlıq fəaliyyətinin imkanlarından daha səmərəli istifadə edilməli, sənaye siyasətində müvafiq istiqamətdə təkmilləşdirmələr aparmaqla milli iqtisadiyyatın real sektoruna aid sahələrdə kapitallaşma artırılmalı, elmi-texniki potensialdan səmərəli istifadə edilməli, emal sənayesi müəssilərinin fəaliyyəti təkmilləşdirilməli, həmin müəssisələrin məhsullarının ixrac imkanları genişləndirilməli, milli iqtisadiyyatın müəyyən sahələrinin idxaldan asılılığı aradan qaldırılmalıdır.
- ❖ Azərbaycanda KSM-in mütərəqqi modeli kimi anqloamerkan modelinə üstünlük verilməlidir. Bu onunla əsaslandırılır ki, yetərli

dövlət dəstəyinin olmasına belə baxmayaraq Azərbaycanda da KSM-in tətbiqi üzrə tədbirlərin əsas hissəsi şirkətlərin üzərinə düşür;

Aparılan təhlillərlə əsaslandırılır ki, real sektorun davamlı inkişafında sahibkarlığın strateji rolunun artırılması üçün müvafiq strategiya hazırlanmalı və o, müvafiq mütərəqqi komponentlər, bazar mexanizmləri əsasında reallaşdırılmalıdır. Bunun üçün aşağıdakılar təklif olunur:

- sahibkarlıq sahəsində onun inkişafı üçün özünütəşkil və özünütənzim sistemləri yaradılmalı, fəaliyyət sahələri üzrə ixtisaslaşma dərinləşdirilməli və bütün bunlar üçün müqabil funksional infrastruktur formalaşdırılmalıdır;
- dövlət iqtisadiyyatın bütün sahələrinin, xususən də real sektorun kapitallaşmasının artırılmasına səy göstərməli, milli valyutanın inflyasiya və devalvasiyasını daha biçimli tənzimləməlidir;
- özəl sektorun effektivliyi artırılmalı, dövlətlə özəl sektor arasında partnyorluq münasibətləri inkişaf etdirilməli, sahibkarlığın iqtisadi-hüquqi əlahiddəliyi genişləndirilməlidir;
- sosial təhlükəsizliyi gücləndirən sosial strukturlar, həyat təminatı sistemi, insanların sosiallaşması inkişaf etdirilməli, yeni tələblərə uyğun həyat tərzinə, gəlirlər artımına və imkanlar bərabərliyinə nail olunmalıdır;
- ixrac yönümlü rəqabətədavamlı real sektorun dayanıqlı inkişafında ayrı-ayrı sahələrdə, xüsusən də, inkişaf etməkdə olan tikinti materialları sektorunda istehsal sahələrinin modernləşdirilməsi və diversifikasiyası üçün investisiya stimullaşdırılması yüksəldilməlidir;
- innovasiya sahibkarlığının dəstəklənməsi ilə əlaqədar müvafiq "İnnovasiya fondu" təsis olunmalı, bu sahədə hüquqi təsisatlandırmalar təkmilləşdirilməli və genişləndirilməlidir;
- insan resurslarından səmərəli istifadə və korporativ sosial məsuliyyətin artırılması, kölgə sahibkarlığını təcrid edən, vençur kapitalını dəstəkləyən institusional tədbirlər gücləndirilməlidir;
- dövlət tərəfindən sahibkarlara maliyyə-əmlak yardımını təmin edən təsisatların genişləndirilməsi, istehsal və xidmət üçün ehtiyat sahə və torpaq fondlarının ayrılması, təbii sərvətlərin istismarına giriş asanlaşdırılmalıdır;
- kreditalma və işgüzar informasiyaya giriş şərtləri sadələşdirilməli (*rəqiblər, məhsul və s. haqqında informasiya təminatı*), elm və istehsalat arasında əlaqələrin inkişafı sahəsində şaquli siyasətin məhdudlaşdırılması hesabına üfüqi siyasət prinsipləri və alətləri təkmilləşdirilməli və genişləndirilməlidir;

- ❖ işçilərin hüquqlarının müdafiə olunması mexanizmləri sərtləşdirilməli, klasterləşdirmə vasitəsi kimi kiçik və orta müəssisələrin subpodratçı qismində cəlb edilməsinə dəstək tədbirləri reallaşdırılmalıdır;
- ❖ sahibkarlığın normativ-hüquqi bazasının təkmilləşdirilməsi bu sahədə "Sənaye-innovasiya fəaliyyətinə dövlət dəstəyi haqqında" və "İnnovativ sahibkarlığa dövlət dəstəyi haqqında" əlahiddə qanunlar işlənib hazırlanmalıdır.

Bütün bunlarla yanaşı, iqtisadiyyatın real sektorunun davamlı inkişafını təmin etmək, iqtisadiyyatda sahibkarlığın strateji rolunu artırmaq üçün ətraf mühitün mühafizəsi tədbirləri də genişləndirilməli, ekoloji təhlükəsizlik daha idarə ounan hala gətirilməli, mədəni həyatın zənginləşdirilməsi, elm, təhsil, səhiyyə və insan kapitalının davamlı stimullaşdırılması kimi ümümdövlət tədbirlərinin həyata keçirilməsi də vacib hesab ediləndir.

**Dissertasiyanın əsas elmi nəticələrinə dair aşağıdakı elmi əsərlər çap olunmuşdur:**


1. F.H.Bəşirov. "Rəqabətədavamlı biznes sahələrinin formalaşdırılması ilə sahibkarlığın davamlı inkişafının təmin edilməsi. "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı: 27-28.06.2012, 0,4 ç.v.
2. F.H.Bəşirov. Sahibkarlığın optimal inkişafının təmin edilməsində rəqabətədavamlı biznes sahələrinin formalaşdırılma zərurəti. Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları. I cild. Bakı: 2013, 0,3 ç.v.
3. F.H.Bəşirov. Rəqabətə davamlılıq sahibkarlığın optimal inkşafının təmin edilməsinin mühüm faktoru kimi. "Müasir aqrar elm: qloballaşma şəraitində əsrin aktual problemləri və inkişaf perspekivləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. III cild. Gəncə: 22-24.09.2014, 0,1 ç.v.
4. F.H.Bəşirov. Sahibkarlığın nəzəri konsepsiyaları və formalaşması xüsusiyyətləri. "Azərbaycanın vergi jurnalı". Bakı: № 6, 2015, 1,8 ç.v.
5. F.H.Bəşirov. Sahibkarlığın müasir dövlət tənzimlənməsi mexanizmləri. "Təfəkkür" elmi xəbərlər jurnalı. Elm və Təhsil mərkəzi Təfəkkür Universiteti. Bakı: № 3 (9). 2015, 0,7 ç.v.
6. F.H.Bəşirov. İqtisadi artımın davamlı təmin edilməsində sahibkarlıq fəaliyyətinin rolu və onun real sektorda genişləndirilməsi imkanları. "İpək yolu" jurnalı. Azərbaycan Universiteti. Bakı: № 3. 2015, 0,8 ç.v.
7. F.H.Bəşirov. Real sektorda ixrac yönümlü rəqabətədavamli sahib-

karliq fəaliyyətinin genişlənməsi istiqamətləri. AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası. Bakı: № 4. 2015, 0,7 ç.v.

8. Ф.Х.Баширов. Предпринимательство как главный фактор экономического развития современного Азербайджана. Журнал “Научное обозрение”. Москва: № 20, 2015, 0,7 п.л.

9. F.H.Bəşirov. Azərbaycan iqtisadiyyatında real sektorun davamlı inkişafında tikinti materialları sənayesinin rolu və strateji aspektləri. Azərbaycanda inşaat materialları sənayesinin inkişaf perspektivləri mövzusunda beynəlxalq konfrans. Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı: 2015, 0,1 ç.v.

10. Ф.Х.Баширов. Пути роста эффективной предпринимательской деятельности на рынке строительных материалов Азербайджана. Журнал “Экономика держава”. Киев: № 5 2016, 0,7 п.л.

# РЕЗЮМЕ

**Баширов Фуад Хидаят оглы**

**Проблемы повышения стратегического роли предпринимательства в продолжительного развитии реального сектора экономики**
**(*на примере сектора строительных материалов Азербайджанской Республики*)**

Диссертационная работа посвящена исследованию проблем повышения стратегической роли предпринимательства в продолжительном развитии реального сектора экономики.

Основные научные результаты исследования охватывают совершенствующие научные-теоретические и прикладные разработки решения проблемы данной области, а также методические подходы определения потенциала предпринимательства в реальном секторе и соответствующие рыночные механизмы для повышения её эффективности.

Данное исследование является значимым, как с теоретической, так и практической точек зрения. Методологические подходы, предложения и полученные результаты создают новые возможности обогатить существующие исследования по эффективному использованию потенциала предпринимательства в дальнейшем развитии реального сектора. Выдвинутые конкретные предложения в работе могут быть использованы в качестве альтернативного научного источника в подготовке новой стратегии развития предпринимательства в реальном секторе страны, совершенствовании институциональной среды и нормативно-правовой базы соответствующей области, а также в разработки новых соответствующих государственных программ, стратегий и концепций.



# SUMMARY

## Bashirov Fuad Hidayat oglu

## Problems of increasing the strategic role of entrepreneurship in sustainable development of the real sector of the economy

*(at the example of the building material sector of the Azerbaijan Republic)*

The thesis is devoted to researching the problems of increasing the strategic role of entrepreneurship in sustainable development of the real sector of the economy.

Main scientific conclusions of the study include the improved scientific-theoretical and applied directions to solve the problems in this area, as well as the methodological approaches to determine the potential of entrepreneurship in the real sector, and the corresponding market mechanisms to improve its effectiveness.

This study is important, both from a theoretical and practical point of view. Methodological approaches, proposals and the results create new opportunities to enrich existing research on the effective use of the potential of entrepreneurship in the further development of the real sector. Proposals developed in this thesis can be used as an alternative scientific sources in the preparation of a new strategy for the development of entrepreneurship in the real sector of the country, improvement of the institutional environment and regulatory framework relevant area, as well as the development of new relevant government policies, strategies and concepts.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 065, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

-----------------------------------------------------------------------------

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

==============================================

*На правах рукописи*

**Баширов Фуад Хидаят оглы**

# Проблемы повышения стратегической роли предпринимательства в продолжительной развитии реального сектора экономики

**(*на примере сектора промышленности строительных материалов Азербайджанской Республики*)**

**5312.01- «Отраслевая экономика»**

## АВТОРЕФЕРАТ

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа– 2016**